# Yeniliklər elmin inkişafına yönəldilib




## *Ali Attestasiya Komissiyasının son illərdəki fəaliyyəti haqqında bəzi qeydlər*

***Cəmiyyətin həyatında baş verən yeniliklər elmi kadrların hazırlanmasında və ölkənin elmi potensialının formalaşdırılmasında önəmli rolu olan Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) fəaliyyətindən də yan keçmədi. Dünyanı çənginə alan və bütün sahələri böhrana məruz qoyan pandemiya dövründə də komissiya fəaliyyətini uğurla davam etdirdi.***

Komissiya xüsusi karantin rejiminin tələblərini yerinə yetirməklə, fəaliyyətini yeni reallığa uyğunlaşdırdı. Mətbuata ilk açıqlamalarda da maraq doğuran bu idi ki, Ali Attestasiya Komissiyasının fəaliyyəti bütün istiqamətlərində yenidənqurma, ciddi dəyişikliklər və yeniliklərlə əhatə olunub. Dissertasiya şuralarının səlahiyyət müddəti artırılmaqla, potensial imkanları da genişləndirildi, hətta onların tərkiblərinin gücləndirilməsi üçün vacib amillər əsaslandırıldı. Yüksəkixtisaslı əcnəbi mütəxəssislərin dissertasiya şuralarının tərkibinə daxil edilməsinə verilən imkan, həm elmi işlərin keyfiyyət və sanbalına təsir edən amil kimi, həm də bir yenilik kimi dəyərləndirilə bilər.

"Xüsusi karantin rejimi dövründə dissertasiya şuralarında müdafiələrin təşkili və keçirilməsinə dair tələblər"ə əsasən, profilaktik tədbirlərin həyata keçirilməsi ilə dissertasiyaların müzakirəsi və müdafiəsi təşkil edildi. Bunlar təkcə dövrün tələblərindən yox, həm də elmi tədqiqatda, yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığında prinsipial mövqedən və təməl prinsiplərinə sadiqlikdən bəhrələnirdi. Şübhəsiz ki, burada 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə, torpaqlarımızın işğaldan azad edilməsi və Azərbaycan reallıqlarının dünyada qəbul edilməsi və tanıdılması mühüm rol oynamış, eləcə də elmin dünyaya inteqrasiyasında xüsusi önəm daşımışdır. Bütün bunlarla yanaşı, Ali Attestasiya Komissiyasının fəaliyyətində diqqətçəkən fəaliyyətlərin mahiyyətində nələrin dayandığını görmək üçün ümdə saydığımız bəzi məsələlərin üzərində qısaca da olsa dayanmağı vacib hesab etdik.

"AAK lazımdırmı?" ritorik sualının ortaya çıxmasının obyektiv reallıqlarının nələrdən qaynaqlandığını qismən də olsa anlamaq çətin deyil. Axı, əslində, 1992-ci ildə yaradılan AAK da müstəqilliyimizin nailiyyətlərindəndir və Azad Mirzəcənzadə kimi nəhəng bir elm korifeyinin çalışdığı və rəhbərlik etdiyi təşkilatın nüfuzu və hörməti də onunlamı getdi? Bəs nəsillərin estafet və ənənələrin üstündən belə tez və asanlıqla qara bir xətt çəkməyin kökündə nələr dayanırdı? Müstəqillik qazandığı az bir zaman çərçivəsində regionun lider dövləti olan Azərbaycan elm sahəsində niyə bu liderliyi qazana bilmir? Doğrudanmı elm diletantların əlində qalıb?

Şübhəsiz ki, bu çoxsaylı suallaрın cavablarının olsa-olsa bir qismi, həm də az bir qismi AAK-a aiddir. Burada elmi işlərin hazırlandığı elm və təhsil müəssisələrinin fəaliyyət və cavabdehliyi, bəlkə də, daha önəmli olmalıdır?! Güman edirik ki, AAK-ın ləğvini istəyənlər, onu elmin yolunda manеə adlandıranlar bu mühüm faktı qəsdən unudurlar. Hətta dünyada AAK-ın olmadığı Türkiyə, Almaniya təcürbəsindən danışanlar, ümid edirik ki, bizim təhsil ocaqlarının səviyyəsini bu ölkələrlə müqayisə etsəydilər, görəsən, qənaətləri nə olardı?! Doğrudanmı, hələ ki, reytinqləri ilə dünyada önəmli bir yer tutmayan universitetlərimiz bu vəzifənin layiqincə öhdəsindən gəlmək iqtidarındadırlar?!

Bir də unutmamalıyıq ki, elmi işlər AAK-a məhz ölkənin elm və təhsil ocaqlarından, özləri də bir neçə mərhələdə müzakirələrdən keçdikdən sonra daxil olur. Təəssüf yaradan budur ki, bu gün də AAK özünün intellekt imkanları və elmi-texniki potensialı ilə deyil, daha çox tədricən və uğurlu idarəçiliyi, azalmaqda olan problemləri ilə gündəmə gəlir. Elmi diletantlardan təmizlənmək istəyən AAK-ın yenidən təşkili, yeni əsasnamə və nizamnamənin qəbulu bu sahədə aparılan islahatların başlanğıcı oldu. Yeni rəhbərliyin və sağlam düşüncəli qüvvələrin gəlişi bəzi qeyri-ciddi görünən təpkilərlə qarşılansa da, buradakı ab-havanı tezliklə dəyişdirə bildi. Hətta ilk vaxtlar Azərbaycan elmində fədakar tədqiqatçı imici qazanmış bəzi alimlərin bu quruma məmur təyinatlarını tərəddüdlə qarşılasaq da, sonralar bunun nə qədər vacib olduğunun isbata ehtiyacı qalmadı.



İndi arzu olunandır ki, bu proseslər və yeni ab-hava dəyişikliyi iddiaçıların hazırlandığı təşkilatlarda da özünü göstərsin. Bunun üçünsə, təbii ki, nəyinsə müqabilində himayədarlıqları ilə nələrəsə şərait yaradanlara qarşı təsirli tədbirlərin görülməsi də gündəmdə olmalıdır. Şərt deyil ki, kiməsə cinayət işi açılsın, amma belələrinin müdafiə şuralarında təmsilçiliyinə, elmi rəhbər, opponent və heç olmasa rəyçi olmasına qadağalar qoyula bilər. Şübhəsiz, bu yöndə də AAK-ın atacağı addımlar xüsusi önəm daşıyacaq.

Bir vaxtlar dissertasiya müdafiələrində aparıcı təşkilatların rolunun vacibliyi və onların imkanlarının genişləndirilməsi ciddi çağırışlardan idi. Amma reallıqlar formal xarakter daşıyan və əslində, elmi işin dəyərinin yüksəldilməsində elə bir rolu olmayan, əksinə, bürokratik əngəl yaradan bu manеənin ləğv edilməsini təsdiq etdi. Yeni qaydalarda da olduğu kimi, müdafiə prosesində dissertasiya işinə rəy bildirənlər rəsmi opponentlər olduğundan onların sayının artırılması daha məqsədəuyğun hesab edildi.

Bunun davamı olaraq seminarların ixtisaslar üzrə formalaşdırılması təşkil edildi və bu, seminarın elmi statusunu artırdı. Əgər seminarın qərarı mənfi olsa belə, iş yenə müzakirəyə buraxılırdı. Onda sual oluna bilər, əgər belədirsə seminarın keçirilməsi nəyə lazımdır? Göründüyü kimi, elmi seminarın formal xarakterini bu sual da təsdiqləyir. Çox haqlı olaraq yeni qaydalarda ilk dəfə olaraq seminarlar müdafiəyə keçid üçün həlledici mərhələ kimi təsdiqləndi və minimum 5 nəfər ixtisas sahibinin iştirak etməsi vacib hesab edildi.

Həm dissertasiya işlərinin tərtibində, həm də elmi adların verilməsində yeni qaydaların tətbiqi, daha dəqiq desək, sadələşdirmə və tələblərin yüngülləşdirilməsi təqdirəlayiqdir. İndi iddiaçılardan məqalələrinin xarici ölkələrdə nəşr edilən nüfuzlu elmi jurnallarda yox, beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan dövri elmi nəşrlərdə dərci tələb olunur. Obyektiv yanaşmadır ki, bazaların siyahısı ayrı-ayrı elm sahələri üzrə təsdiq edilmiş və AAK-ın saytında yerləşdirilmişdir.

Minimum imtahanlarının sayı azaldılmış, iddiaçının elmi işinin müdafiəsi üçün ancaq ixtisas və xarici dil imtahanı tələb olunur. Xarici dil imtahanının Dövlət İmtahan Mərkəzi tərəfindən aparılması bəzi təpkilərlə qarşılansa da, bunun ciddi bir məsələ olduğunu inkar etmək mümkün deyil. Əbəs deyil ki, Atatürkün Türk dünyasının böyük fikir adamı kimi təqdim etdiyi Ziya Göyalp dil öyrənməyin elmə faydasını əvəzsiz imkan adlandırırdı. Bundan əlavə, minimum imtahanlarının komissiya tərəfindən təsdiqlənmiş proqramlar əsasında keçirilməsi, nüfuzlu alimlərin və yüksək peşəkarlığa malik mütəxəssislərin AAK-ın fəaliyyətinə cəlb olunması da önəmli faktdır. Bu, ekspertiza işinin daha keyfiyyətli aparılmasına təsir edir, eyni zamanda, elmi işin keyfiyyəti üçün təminat yaradır.

AAK-ın fəaliyyətində özünü təsdiq edən, amma təssüf ki, bəzi hallarda birmənalı qarşılanmayan bu kimi yeniliklərdən bir az da ətraflı danışmaq olar. Bunlar həm də onun təsdiqidir ki, komissiya öz işində elmin inkişafını təmin edən bəzi ənənələrə sadiqlik göstərməklə yanaşı, Avropa ölkələrindəki zəngin təcrübələrin də mənimsənilməsi üçün ciddi səylər göstərmişdir. Bütövlükdə, haqqında danışdığımız və danışmadığımız çoxsaylı yeniliklər qloballaşan dünyanın tələblərindəndir, təhsilin və elmin daha sürətli inkişafı üçün zəruridir.

Bir məsələnin üzərində dayanmağı da vacib hesab edirik. Ola bilsin ki, jurnalist olduğumuzdan bu barədə danışmağı daha vacib bildik. Cəmiyyətdə jurnalistikanın bir elm kimi öyrənilməsi və təsdiqi ilə bağlı çoxsaylı diskussiyalar yaşanıb və tərəddüd etmədən deyə bilərik ki, bu münasibət bəzi dairələrdə bu gün də var. Amma AAK-nın jurnalistikanı bir elm kimi tanıması və 5720.01 ixtisas şifri ilə həm doktorluq, həm də fəlsəfə doktoru elmi dərəcələri verməsi bəs edir ki, bu barədə əlavə müzakirələrin aparılmasına qətiyyən ehtiyac qalmasın. Onsuz da, jurnalistika universal bilikləri özündə birləşdirən, cəmiyyətə informasiya xidməti verən, dövlət və cəmiyyət sistemini formalaşdıran önəmli bir sahədir. Eyni zamanda, elmdir, tədqiqat obyekti və predmeti var. Bakı Dövlət Universitetində, Bakı Slavyan Universitetində, Naxçıvan Dövlət Universitetində və müstəqillik illərində meydana gəlmiş özəl universitetlərdə təkcə jurnalist kadrlar hazırlanmadı, həm də milli mətbuatımızın, eləcə də beynəlxalq mətbuatın problemlərinə həsr olunmuş çoxsaylı tədqiqatlar aparıldı. Bunları nəzərə alaraq, AAK-ın bu sahədə elmin daha vüsətlə inkişafına imkan yaradan dəstəyinə və köməyinə ehtiyac var:

**Birincisi,** yaxşı olardı ki, jurnalistka sahəsində elmi araşdırmaların kəmiyyət və keyfiyyətini artırmaq üçün ayrıca dissertasiya şurası yaradılsın. Şərt deyil ki, "jurnalistika elmləri doktoru" və ya "jurnalistika üzrə fəlsəfə doktoru" alimlik dərəcəsi təsis edilsin. Filologiya, tarix ya siyasət elmləri üzrə, fərq etməz. Bu adlar saxlanıla bilər, amma AAK-n təsdiq etdiyi ixtisas şrifi (5720.01) saxlanmaqla;

**İkincisi,** filologiya, tarix və siyasi elmlər üzrə alimlik adı qazanmış, amma tədqiqatları bilavasitə jurnalistikaya aid olan onlarca mütəxəssis var. Onların ixtisas şrifləri jurnalistikaya aid olmadığından, bu sahəyə aid olan müdafiələrdə və elmi seminarlarda iştirak edə bilmirlər, çünki AAK-ın tələbləri buna imkan vermir və yeri gəlmişkən, bu tələbləri dəyərli hesab edirəm. Yaxşı olardı ki, AAK bu kadrların ən sadə yollarla, deyək ki, özlərinin razılığı və yazılı müraciəti ilə jurnalistika ixtisası şrifinə keçmələrinə imkan yaratsın;

**Üçüncüsü,** Bakı Dövlət Universitetin jurnalistika fakültəsində hələ sovet dövründə bünövrəsi qoyulan "Jurnalist" jurnalının nəşri bərpa olunub və 2-ci ildir ki, bu nəşr fəaliyyətini davam etdirir. Bu jurnalın dərc etdiyi məqalələr o dövrdə də, bu gün də bilavasitə elmlə bağlıdır. Yaxşı olardı ki, bu nəşr də AAK tərəfindən tanınsın və komissiyanın tanıdığı dövri elmi nəşrlərin siyahısına daxil edilsin.

Sonda onu da qeyd etmək faydalı olardı ki, AAK-ın fəaliyyəti ilə bağlı tənqidi fikir söyləmək üçün bəzi əsaslar da var və onları görmək üçün lupa axtarmaq gərək deyil. Həm də indiki fikir azadlığı zamanında bunu heç kəs qadağan etmir. Bunların bir qismi texniki məsələlərlə bağlıdır.

Eyni zamanda, onu da unutmamalıyıq ki, ideal bir qurumun yaradılması üçün təkcə vaxta, zamana yox, həm də nailiyyətlərimizdən bəhrələnə bilən ideal bir təhsilin və elmi potensialın yaradılmasına da böyük ehtiyac var. İndi bu ehtiyacın ödənəcəyi zamanı gözləmək lazımdırmı? Əlbəttə yox! Onda uğurlu fəaliyyəti ilə gündəmə gələn AAK-a bir daha uğurlar arzulayaq.

***Namiq QƏDİMOĞLU,***
***"Xalq qəzeti"***